# Mifdən gerçəkliyə doğru

**Azərbaycan türklərinin soykökündə iştirak etmiş tayfa və qəbiləbirliklərinin mifik görüşlərinin araşdırılması xalqın gerçək, ictimai-tarixi təfəkkürünün öyrənilməsinə yeni imkanlar açır. Gerçəkliyin üzə çıxarılmasında uzaq tarixi keçmişə müraciət edilməsi bu iz və əlamətlərin aşkarlanması imkanlarını bir qədər də artırır.**

Tarixdən məlumdur ki, miladdan çox öncə Azərbaycanın cənub torpaqlarında yaranmış Aratta dövləti şumerlərlə sıx tarixi-mədəni, iqtisadi əlaqələrə malik idi. Əski Azərbaycan ərazisində yaranmış mədəniyyətin İkiçayarasındakı mədəniyyətlə əlaqəsi barədə məlumatlar çoxdur.

Bunlardan bəzilərini yada salmaq kifayətdir. Türkoloq alim mərhum A.Məmmədov mənbələrə əsasən yazıb ki, "türkdilli qəbilə və tayfa birlikləri yeni eradan əvvəl iki dəfə müxtəlif ərazilərdə şumerlərlə ünsiyyətdə olmuş (IV və II minilliklərdə), dövrünün ən mədəni və yüksək səviyyəli bir xalqı olan şumerlərlə bu əlaqədən hər iki dil qrupunun leksik tərkibinə yüzlərlə söz daxil olmuşdur" (7, s.5-34). Görkəmli alim F. Zeynalov da bu məsələ ilə bağlı yazır: "Şumerlərlə birinci ünsiyyət ümumtürk xarakteri daşıyırsa (e. ə. IV minillik), ikinci əlaqə Azərbaycan dili ilə bilavasitə olmuşdur" (10, s.28).

Aydın görünən budur ki, e. ə. IV-II minilliklərdə şumer-türk əlaqələri mövcud idi. Azərbaycan, eləcə də onun tarixi bölgəsi Naxçıvanın müxtəlif yerlərində (Kültəpə, Oğlanqala və s.) aşkar olunmuş maddi mədəniyyət nümunələri bölgədə 5-6 min il bundan əvvəl mövcud mədəniyyətdən söz açmağa imkan verir. Daha əski çağların animist, totemist, fetişist görüşlərindən qaynaqlanan mifik və arxaik folklor mətnlərinin tədqiqi türk tayfa və qəbilələrinin bölgədə ibtidai icma dövründən məskun olduğunu təsdiq etməkdədir.

Bunlarla yanaşı, Azərbaycan folklorunda şumer qaynaqları ilə bağlı onlarla qədim süjet, motiv və epizodlar vardır ki, bunlar da dəyərli şifahi mənbələrdən biridir. Bu mənbələr mifik, poetik forma qazanmış xeyli real, gerçək həqiqətlərin izlərini yaşatmaqdadır. Tarixi-filoloji yönümdə effektli araşdırmaların aparılmasında Arattanın Azərbaycana bağlılığı, xalqımızın soykökündə iştirak etmiş Manna, Atropaten, Arran-Alban və digər türk qəbilə birliklərinin iştirakı, midiyalılar və "Avesta" ilə bağlı məsələlər nəzərə alınmalıdır.

Midiya-Atropaten dövrünə aid "Avesta" ilə bağlı mifik inam və görüşlər, əfsanələr Azərbaycan alimlərinin bəzi tədqiqatlarında özünə müəyyən yer alıb. Bu cür tədqiqatlarda "Avesta" mifik fəlsəfi görüşlərinin Azərbaycanla əlaqəsindən, Atropaten miflərinin etnik-milli xüsusiyyətlərindən danışılmışdır.

Xalqın soykökünün, tarixinin, həyat və davranış tərzinin öyrənilməsində mifologiya, yaxud əsatir nədir? Bu suala əsatirin yaxşı tədqiqatçılarından biri - avstriyalı alim Elkinin verdiyi cavabı diqqətə çatdırırıq: "Əsatir sadəcə olaraq günəş, ay, ulduzlar və təbiətin müxtəlif hadisələri haqqında söhbət açan hekayələrin külliyyatı deyildir. Bu hekayələri qəbilənin ictimai, iqtisadi və dini həyatı ilə əlaqədə öyrənməsək, o zaman belə hekayətlərə həsr olunmuş kitabları oxumaqla biz əsatirlər haqqında düzgün təsəvvür ala bilmərik"(5, s.82).

Məsələyə bu meyardan yanaşdıqda əsatir xalqların uzaq keçmişinin, tarixinin bünövrəsidir. Lakin zaman keçdikcə, nəsillər dəyişdikcə, bu bünövrə ilə bağlı əsatirlər olduğu kimi qalmır, dəyişir, bəzən də unudulur. Bunlara baxmayaraq, dövrümüzə gəlib çatmış örnəklərdə mədəniyyətimizin ilkinliyini, qədimliyini səciyyələndirən əlamətlər az deyil. Bunlardakı ilkinliyi, tarixli gerçəkliyi araşdırıb ortaya çıxarmağın isə əhəmiyyəti böyükdür.

Naxçıvan bölgəsində atla bağlı qeydə alınmış mifik mətnlərin, inam və etiqadların mənşəyi çox-çox əski dövrlərlə bağlıdır. "At işlər, ər öyünər", "At ölər, meydan qalar, igid ölər ad-san qalar", "Qapıya at nalı vuranın işi uğurlu olar" və digər məsəllər göstərmək olar ki, burada at uğur, xeyirxahlıq, mərdlik əlaməti kimi verilir. Bunlar mifik düşüncədən çox, real düşüncəyə yaxındır. Atın qədim türklərin həyatında, xüsusən hərbi yürüşlərində əhəmiyyəti çox böyük olub. Bu da atla bağlı folklor örnəklərinin yaranmasına zəmin yaradıb. Azərbaycanda atçılığın tarixi də çox qədimdir. Təsadüfi deyil ki, Naxçıvanın Kültəpə qədim yaşayış yerindən tapılmış yəhərli at fiqurunun yaşı e. ə. III minilliyin ortalarına aid edilir (3, s.53). Eləcə də Gəmiqayadakı at təsviri bu tarixi qədimliyi sübut edən digər dəlillərdən biridir. Atdan əski dövrlərdən minik və qoşqu vasitəsi kimi istifadə edilməsi hətta son onilliklərə qədər öz əhəmiyyətini saxlamışdır.

Gəmiqayada miflərlə bağlı təsvirlər də çoxdur. Burada qədim tayfa və qəbilə birliklərinin dünyagörüşü, həyat tərzi haqqında təsəvvürlər qorunmuşdur. Əcdadlarımızın müqəddəsləşdirdiyi totemlərdən ilan, keçi, öküz rəsmləri, günəşə, aya, suya, ağaca sitayiş motivli təsvirlər daha xarakterikdir. Ovçuluqla bağlı rəsmlər də əski dövrlərdən xəbər verir. Buradakı ən qədim təsvirin 17 min il yaşı olduğu göstərilir (6, s.12). Gəmiqaya təsvirləri arasında qədim tayfaların mənsubluğunu göstərən damğaların aşkarlanması da çox əhəmiyyətlidir. Bunlar haqqındakı məlumatlardan birinə görə, Gəmiqayada aşkar edilmiş damğalardan biri oğuzların ulayundluqlar, biri saraylı, digəri salur və türkmən tayfalarına aid edilir (2, s.246). Deməli, adları çəkilən tayfalar Gəmiqaya ətrafında, Gilançayın yuxarı dağətəyi bölgəsində yaşamışlar. Bunlar eyni zamanda Azərbaycan türklərinin avtoxton, yəni yerli xalq olduğunu təsdiq edir. Bu, o deməkdir ki, xalqımız bu torpaqlara başqa yerdən gəlməyib, eramızdan çox-çox əvvəlki minilliklərdən buranın aborigen sakinləridir.

Məlumdur ki, Azərbaycanın Naxçıvan ərazisində məskunlaşmış əski türk-oğuz tayfaları əkinçiliklə, heyvandarlıqla yanaşı, ovçuluqla da məşğul olmuşlar. Ovçuluqla bağlı düşüncələr bəzi əfsanəvi obrazların yaranmasına gətirib çıxartmışdır. Belə obrazların ən kütləvi Ovçu Pirimdir. Ovçuluqla, eləcə də Ovçu Pirimlə bağlı mifik görüşlərin kökləri əski çağlarla, hətta ibtidai insanların ilkin real düşüncəsilə səsləşir. Yaxud, Gəmiqayanın ətraf kəndlərində naxırdan, sürüdən ayrılıb gecə örüşdə qalmış heyvanın qurddan qorunması üçün "qurd ağzı bağlama" ayini indi də yaşamaqdadır. Bu ayinə görə, əfsun xarakterli aşağıdakı ifadələri ağzı açıq bıçağa oxuyub bükməklə qurdun ağzının bağlanmış olduğu düşünülür:

***Zağladım, yağladım***
***Qurdun ağzın bağladım.***

Əski etiqadları əks etdirən əfsunlarla bağlı folklorşünas A. Nəbiyev yazır: "Əfsunlar ibtidai insanın gündəlik məişət həyatı və real münasibətləriylə sıx bağlı olmuşdur" (8, s.216-217). İlkin əfsunlar qədim türklərin həyat tərzinin beş mühüm ünsürü ilə sıx bağlıdır. Bunlardan biri sudur. Lakin suyun mifik düşüncə ilə yanaşı, gerçək düşüncəni ifadə edən poetik örnəkləri də yaradılmışdır. Bunlardan birində deyilir:

***Dağdan axan***
***Seldi, gəl.***
***Dərələrə***
***Doldu, gəl.***
***Dərələrdən***
***Axan sel,***
***El-obanı***
***Aldı, gəl.***

Bölgənin Əlincəçay regionundan qeydə alınmış bu poetik nümunədən fərqli olaraq mifik düşüncə ilə bağlı əfsunlar daha çox ilkin etiqadlarla bağlıdır. Araşdırma deməyə əsas verir ki, əfsunların çoxu xalqımızın ibtidai həyat tərzi ilə bağlı yaranmışdır.

Naxçıvan bölgəsinin qalaları haqqında el təsəvvürünün çoxu gerçək tarixi düşüncə ilə bağlıdır. Bu qalaların ilkin adları ilə bağlı mifoloq M. Seyidov maraqlı mülahizələr söyləyib. Alim b. e. V-VII və sonrakı yüzilliklərinə əsasən yazır ki, Naxçıvan bölgəsindəki Oğlanqalanın ilkin adı "Arba", Çalxanqalanınkı "Çauq", Gavurqalanınkı "Xaxi", Əlincəqalanınkı isə "Erinçaq" olmuşdur (9, s.83). Müəllifə görə, bu adlar tarixi-ictimai hadisələrlə yanaşı, əski mifoloji görüşlərlə də bağlıdır. Ancaq zaman dəyişdikcə həyatda təbii və qeyri-təbii hadisələrə münasibət də dəyişə bilir, insanlar belə qalalara yeni baxışla əlaqədar yeni adlar da verirlər. M. Seyidov diqqəti tarixi istiqamətə çəkərək erkən orta əsrlər

erməni qaynaqlarına əsasən adları çəkilən qalaların ilkin adlarının dövlət quruluşu ilə bağlı yaranmış türk sözləri olduğu qənaətinə gəlir (9, s.87, 89).

Naxçıvan bölgəsində, eləcə də Azərbaycanın bəzi regionlarında əldə olunan bəzi mifik mətnlərdə ilk əcdad kimi Nuh soyundan gələn Türkün adı çəkilir. Türk kosmosunun formalaşmasında önəmli rol oynayan Türk, Oğuz xan, Qorqud ata, Boz qurd, Xıdır, Koroğlu bəzən mifoloji prosesin fəal iştirakçısı, bəzən də gerçək mədəni qəhrəman kimi təqdim edilir. Oğuz xan dövlətin və hərbi nizamın, Qorqud ata qopuzun, Ulu Türk sosial düzənin yaradıcısı kimi verilmişdir. Bunlardan yalnız Koroğlunun və Boz Qurdun mifik əcdad və mədəni qəhrəman rolu hələlik qəbul edilməmişdir.

Koroğlu, adətən dastan qəhrəmanı kimi, Boz Qurd isə bir totem kimi verilmişdir(1, s.58). Ümumiyyətlə, mifik təfəkkürdə Əcdad kultuna inam güclüdür. Türk və monqol xalqlarında olduğu kimi, Naxçıvan bölgəsində "yeddi arxa"sını, yəni yeddi babasını tanımayana "zatını, kökünü" tanımayan kimi baxırlar. Bu barədə tanınmış mifoloq A.Acaloğlu yazır: "...Yalnız mifologiyada deyil, ümumiyyətlə etnik-mədəni ənənələrdə əcdad, mənşə, başlanğıc anlayışı mühüm yer tutur və taleyüklü məna daşıyır, çünki "başlanğıcı olan mövcuddur... Kim əcdadının adını çəkə bilirsə, o, siyasi cəhətdən mövcuddur" (1, s.58).

Bu real milli düşüncə tərzi Azərbaycan eposunda, əfsanələrində, xalq şeiri və digər nümunələrdə geniş izlənən amillərdəndir. "Dədə Qorqud" boylarında Qazan xan öz soykökünü nəzərdə tutaraq deyir:

***Ağ qayanın qaplanının erkəgində bir köküm var,***
***Ağ sazır aslanında bir köküm var,***
***Əzvay qurd ənigi erkəgində bir köküm var,***
***Ağ sunqur quşu erkəgində bir köküm var...***
(4, s.147).

Soykökla bağlı belə mifoloji ifadə və deyimlər "Kitabi-Dədə Qorqud" boyları üçün çox səciyyəvidir. Aydın görünür ki, yuxarıda Qazan xanın dilindən deyilən şeir nümunəsi genetik baxımdan etnoqonik miflərdən qaynaqlanır. Burada kökün etnoqonik mifdəki genetik bənzədilməsi mifik özünəməxsusluğu səciyyələndirir.

**Beləliklə, qısa bir araşdırmanın nəticəsi olaraq deyə bilərik ki, ən mifik düşüncənin özündə soykökə, gerçək həyat tərzinə bağlılıq əlamətləri vardır. Bunlarda Azərbaycan, o sıradan onun Naxçıvan bölgəsində məskunlaşmış qədim türk tayfa və qəbilə birliklərinin ilkin tarixinin, dünyagörüşünün gerçək izləri özünü saxlamışdır.**

● **Yusif SƏFƏROV,**
*filologiya elmləri doktoru,*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*
● **Nazirə ƏSGƏROVA,**
*elmi işçi*

## Ədəbiyyat

1. Açaloğlu A. Mifologiya, Azərbaycan ədəbiyyatı tarixi, I c., Bakı, 2004.
2. Cəfərov C. Azərbaycan damğaları, filologiya məsələləri, II b. Bakı, 1984.
3. Əhmədov Q. Bu günə necə gəlib çıxmışıq. Bakı, 1989.
4. Kitabi-Dədə Qorqud, Bakı, 1978.
5. Kondratov A. Sirdən biliyə doğru. Bakı, 1975.
6. Quliyeva N., Əliyev Z. Azərbaycan incəsənəti, I c. Mənbələr, Bakı, 2006.
7. Məmmədov A. Azərbaycan dilinin erkən tarixinə dair materiallar - Azərbaycan filologiyası məsələləri. Bakı, 1983.
8. Nəbiyev A. Əfsunlar və əski inamlar, Azərbaycan filologiyası məsələləri, II b., Bakı, 1984.
9. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı, 1989.
10. Zeynalov F. Azərbaycan dilinin mənşəyi məsələsinə dair - Azərbaycan filologiya məsələləri, II b. Bakı, 1984.